**"Heydər Əliyev Mərkəzinin yaradılması ilə bağlı əlavə tədbirlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Heydər Əliyev Mərkəzi"nin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli 1886 nömrəli Sərəncamının ikinci bəndinin icrası ilə bağlı **qərara alıram:**

1. "Heydər Əliyev Mərkəzi" Bakı şəhərinin Nərimanov rayonu ərazisində yaradılsın.

2. Azərbaycan Respublikası Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi:

2.1. Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə müəyyən edilmiş torpaq sahəsinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada "Heydər Əliyev Mərkəzi"nin yaradılması üçün ayrılmasını təmin etsin;

2.2. aidiyyəti dövlət qurumlarını, elmi təşkilatları, yaradıcı birlikləri cəlb edərək Azərbaycanın milli memarlıq ənənələrinə uyğun olan və müasir tələblərə cavab verən "Heydər Əliyev Mərkəzi"nin layihəsi beynəlxalq müsabiqəsinin keçirilməsini təşkil etsin və müsabiqənin nəticələrini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. "Heydər Əliyev Mərkəzi"nin yaradılması ilə əlaqədar layihələndirməyə tikinti işlərində sifarişçi funksiyaları, habelə Mərkəzin inşası prosesində həyata keçirilən işlərin təşkili və əlaqələndirilməsi Azərbaycan Respublikası Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinə həvalə edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində:

4.1. "Heydər Əliyev Mərkəzi"nin tikintisinin maliyyələşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 yanvar 2007-ci il
№ 1913